Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

**Layihənin istiqaməti: "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"**

# Avropa Oyunları - ilin idman hadisəsi: hədəflər, məqsəd və nəticə



Rəna Mirzəzadə
fəlsəfə elmləri doktoru

**Müasir Azərbaycan iqtisadi inkişaf tempi, siyasi-sosial sabitlik, beynəlxalq münasibətlərdəki nüfuzu, yeri, rolu və mövqeyi ilə regionda lider dövlətdir. Ölkənin bütün sahələr üzrə modern tərəqqisi, idmanın da inkişafını yüksəldibdir. İdmanın kütləviləşməsinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, Prezident İlham Əliyev tərəfindən isə uğurla davam etdirilərək, beynəlxalq arenaya çıxmışdır. Hazırda aparılan genişmiqyaslı işlər ölkəni Avropanın idman mərkəzlərindən biri kimi tanıdıb.**

Çox qısa zamanda Bakıda çeşidli infrastruktur layihələri, yeni idman arenalarının tikintisi və yenidənqurma işləri aparılmışdır. İlk Avropa Oyunları Azərbaycan idman tarixinin ən əlamətdar hadisəsi, Azərbaycan həqiqətlərinin nümayişi və təbliğidir. **Professor Əli Həsənovun** fikri ilə yanaşsaq: "Bakıda keçirilən ilk Avropa Oyunları tək dövlət deyil, həm də ümumxalq işidir".

Məhz bu ərəfədə anti-Azərbaycan dairələr və erməni lobbisi yenə də ölkəmizə yönəlik əks təbliğatda fəallaşaraq, spekulyasiya xarakterli çağırışlar yayırlar. Niyə? Səbəbi nədir? Çünki **dünya Azərbaycandan** və onun uğurlarından danışır.

İlk Avropa Oyunları ərəfəsində bu antitəbliğatın **bir sıra məqamları** var: **Əvvəla,** bu əks-təbliğçilərin müxtəlif ölkələrdə "beşinci kolon" vasitəsilə öz təxribatçı planlarını yayan tərəfdaşları var. Bəllidir ki, Qərbdəki bu dairələr erməni lobbisinin təsirindədir. Faktlar da aydın edir ki, Azərbaycana qarşı sistemli antitəbliğat və təzyiq kampaniyası təşkil etməkdə məqsəd vardır. **Sonrası,** bu, Azərbaycanın müsbət beynəlxalq imicinə ləkə salmaq, himayə etdikləri nümayəndələrini müdafiə edərək ölkəmizi gözdən salmaq niyyətidir.

**Nəticədə,** ölkədə illeqal pozucu fəaliyyətdə olan müəyyən tərəfdaşlarını himayəyə alan anti-Azərbaycan qüvvələri ilk Avropa Oyunlarına qarşı qərəzli olaraq, transmilli media strukturlarının xidmətlərindən də istifadə edərək, dezinformasiya xarakterli məlumatları, şəxsi, qeyri-adekvat, subyektiv mülahizələrini əks etdirən ittiham xarakterli fikirlər yayırlar.

**İlk Avropa Oyunlarının Bakıda keçirilməsi qlobal hadisə olaraq, Azərbaycanı ev sahibi kimi tarixləşdirəcək.** Azərbaycan bu tədbirlə sübut edir ki, belə nüfuzlu idman tədbiri keçirə bilən ölkədir. Bu, **Prezident İlham Əliyevin beynəlxalq münasibətlər və xarici siyasətdə uzaqgörən strateq kimi uğurlu taktikasıdır.** Azərbaycanın müstəqil xarici siyasət xətti var və bu siyasət bütün dövlətlərlə qarşılıqlı anlaşma və əməkdaşlığa əsaslanır.

Aparılan əks-təbliğat həm də Qərbin öz regional geosiyasi maraqlarını həyata keçirmək mexanizmləridir. Müstəqil Azərbaycanın inkişafını istəməyənlər çoxdur və onlar istənilən təzyiq üsulundan istifadəyə cəhd edirlər. Bu təzyiqlər üç mərhələdə olacaq: oyunlara qədər, **oyunlar ərəfəsi, oyunlardan sonra.**

Belə bir yanaşma da var: **"siyasəti idmana qatmaq olarmı..."** Lakin, idman hər bir dövlətin öz gücünü-potensialını göstərir. Dövlət siyasi, hüquqi, həm də sosial anlayışdır. Bu mənada **hər bir vətəndaş öz dövlətinin təəssübünü** saxlamalıdır. Diqqətə yetirsək görərik ki, Avropa Oyunlarından əvvəl də ölkəmizdə bir sıra müxtəlif Avropa çempionatları keçirilmişdir. Yəni Avropa Oyunlarını Azərbaycanda keçirmək ideyası birdən-birə meydana çıxmayıbdır.

**Bəs Avropa Oyunlarının ölkəmizdə keçirilməsinin əhəmiyyəti nədir?** İlk növbədə onu qeyd etmək lazımdır ki, bu ərəfədə ölkədə yeni mühit formalaşır. **Əvvəla,** nəzərə almaq lazımdır ki, XXI əsr informasiya əsridir. Bu turnir isə ölkəmizin xarici imici baxımından da çox əhəmiyyətlidir. Biz oyunların Bakıda keçirilməsi ilə beynəlxalq KİV-lər vasitəsilə yeniləşən Azərbaycanın dünyaya təqdimatını edirik. **İkincisi,** Avropa Oyunlarının Bakıda keçirilməsi bizim özümüzə inamımızın təqdimatıdır. Biz özümüzü bir daha suveren müstəqil ölkə olaraq təsdiq edirik. **Üçüncüsü,** bu cür tədbirlərdən sonra Qarabağ probleminin həllinə də müəyyən imkanlar açılır. **Dördüncüsü,** İlk Avropa Oyunları həm də mədəni əhəmiyyətə malikdir. Beşincisi, nəzərə almaq lazımdır ki, müasir dünyada idman dövlət və millətin mədəni imicinin, eləcə də dövlətin siyasi subyektlərinin formalaşmasında da əhəmiyyətli rol oynayır.

Avropa Oyunları **Azərbaycana nə verəcək?** İqtisadi baxımdan yanaşsaq yeni investisiyalar cəlb olunub. Oyunların Bakıda keçirilməsi ilə əlaqədar **turizm də inkişaf edəcək.** Oyunlar ərəfəsində ticarətin də səviyyəsi yüksələcək, xidmət stimulu dəyişəcək. Beynəlxalq müstəvidə müxtəlif müsabiqələr və festivallar keçirməklə Azərbaycan bir çox sahədə özünü artıq dünyaya tanıdıb və indi bu tanıtıma idman da daxil olacaqdır.

Bu yerdə başqa bir sual yaranır: **siyasətdə idmandan istifadə etmək olarmı?** İdman yarışlarında, Qarabağ məsələsinin çözümü yönündə hansı fürsətlər yarana bilər?

**Öncə** qeyd etdik ki, ölkənin adı Avropa Oyunlarının **ilk məkanı olaraq tarixləşir.** Digər bir məsələ isə Azərbaycan insanına özünü mədəni sferada tanıtmaq üçün imkan açılıb. Biz, hər xidmət göstərən insandan başlayaraq, hamımız bir **Azərbaycan Vətənpərvərliyi Modeli** yaratmalıyıq. Bu tədbir Ermənistanda keçirilsəydi bütün erməni cəmiyyəti, lobbisi, diasporu bu məsələyə dəstək verəcəkdi. Biz öz **qonaqpərvərliyimizi, sülhsevərliyimizi, tolerantlığımızı əyani nümayiş etdirməliyik.**

Azərbaycan neftdən əldə edilən gəlir hesabına burada yaşayan insan, hər bir vətəndaş üçün yenidən tikilir. Parklar, otellər, yollar hamısı vətəndaşlar üçündür. Nefti ölkəsi kimi Azərbaycanda **şəhərlər Avropalaşıb, kəndlər şəhərləşib.** Ona görə də belə bir tədbirin ölkəmizdə keçirilməsi ilə öyünmək, qürurlanmaq lazımdır.

**İlk Avropa Oyunlarının Bakıda keçirilməsi fenomenal hadisədir.** Kuluarlarda belə bir deyim var: **"Əgər bir hadisəni CNN göstərmirsə, o hadisə deyildir".** Bu baxımdan **BBC, CNN, Euronews** kimi kanallarda demək olar ki, hər gün Bakı-Azərbaycanın adı çəkilir. **Bu, böyük qürur, iftixar hissi, yaxşı reklamdır. Ölkənin uğurları olmasa idi, bu kimi tədbirlərə də ev sahibliyi edə bilməzdi.** Bu tədbirlər Azərbaycanın **Qafqazın lider dövləti** olmasını təsdiq edir. Qərbdən gələn təzyiqlərin bir məqsədi də məhz Azərbaycanın **Qafqazın lider dövləti kimi tanınmasına mane olmaq istəyidir.** Burada məqsəd Avropa Oyunları da deyildir, **geosiyasətdir, region uğrunda vuruşdur.** Türk dünyasına qarşı, Azərbaycanın müstəqilliyinə qarşı anti milli fikirlər də məhz belə antitəbliğatçılar və onların tərəfdaşları tərəfindən səsləndirilir.

Biz gələcəyi niyə düşünməməliyik? Nə üçün sosial şəbəkələr bu hadisənin müsbət dividentlərinin pozitiv yönünü paylaşmasın... Bu **Vətən hamımızın** deyilmi? Baxaq, Ərəb dünyasına, dağılır, viran qalır, yerlə yeksan olur, vətəndaşı dağıntılar içində səfil olur.

**İlk Avropa Oyunları mədəni, siyasi aksiyadır. Ona görə də biz** hamılıqla təbliğat işi aparmalıyıq. Bu, həm də alimlərin, tədqiqatçıların işidir. Dövlət hamı üçündür. Bəzi dövlətlər milyonlar sərf edir ki, onun haqda məşhur qəzetlərdə, TV-lərdə məlumat getsin, seriallar çəkilir və buna da milyonlar verilir ki, dövlətinin adı təbliğ olunsun. Bu tədbirə isə xeyli sayda xarici KİV nümayəndəsi gələcəkdir. Onlara çatdırılmalıdır ki, bu oyunlar **MODERNLƏŞƏN AZƏRBAYCANIN** sivil **Qərbə inteqrasiyasıdır.**

Müxtəlifyönlü xarici təşkilatlardan gələn təhdidlərdə əsas hədəflərdən biri də Azərbaycanı öz milli hədəfindən uzaqlaşdırmaqdır. Amma, Azərbaycanda güclü hüquqi, vətəndaş cəmiyyətinin formalaşdığı dövlət qurulub. Dövlətin **əsas hədəfləri də müəyyənləşib.**

**İlk hədəf** Qarabağ probleminin sülh yolu ilə həlli, işğal edilmiş torpaqlarımızın qeydi-şərtsiz qaytarılmasıdır. **İkincisi,** çoxtərəfli enerji siyasəti və ölkənin sürəkli inkişafıdır.

Hər bir ölkənin gücü artdıqca, ona qarşı təzyiqlər də artır. Biz də bunu yaşamaqdayıq. Dağlıq Qarabağ məsələsinə ədalətli yanaşma prinsipi pozulur. Beynəlxalq fondların Ermənistana verdiyi yardımlar göz qabağındadır. Azərbaycana isə təzyiq edilir. Niyə? Məqsəd nədir? Bu ölkə daxilində pozuculuq niyyəti deyilmi? İnformasiya əhaliyə düz verilməlidir. Xaricdəki qüvvələrin məqsədli təzyiqi əsasən Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsinə mane olmaqdır. Azərbaycana gələn insanlar içində haradasa müəyyən təxribatçılar da ola bilər. Xalqın bu ərəfədə bütövlükdə gözü açıq, çox-çox diqqətli olması lazımdır.

Bir qisim həm ölkəmiz, həm də onun insanı haqqında ya məlumatsızdır, ya da antitəbliğatın elementinə çevrilib. Bu baxımdan gənclər, ziyalılar; vətəndaş cəmiyyəti nümayəndələri, KİV, din xadimləri, alimlər, tədqiqatçılar və ekspertlər, siyasi qurum nümayəndələri, və **bütün ölkə vətəndaşı** belə mühüm **mədəni aksiyada Azərbaycançı** olmalıdır...

Fikrimizə **Azərbaycanın Birinci Xanımı, İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın** sözləri ilə yekun vuraq: **"İlk Avropa Oyunları Bakıda ədalət, sağlam rəqabət, dostluq və həmrəylik şəraitində keçəcək və ölkələri, xalqları, insanları bir araya gətirərək möhtəşəm idman bayramına çevriləcək".**



**İlk Avropa Oyunlarının Bakıda keçirilməsi qlobal hadisə olaraq, Azərbaycanı ev sahibi kimi tarixləşdirəcək. Azərbaycan bu tədbirlə sübut edir ki, belə nüfuzlu idman tədbiri keçirə bilən ölkədir. Bu, Prezident İlham Əliyevin beynəlxalq münasibətlər və xarici siyasətdə uzaqgörən strateq kimi uğurlu taktikasıdır. Azərbaycanın müstəqil xarici siyasət xətti var və bu siyasət bütün dövlətlərlə qarşılıqlı anlaşma və əməkdaşlığa əsaslanır.**

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*